## Qərbi Azərbaycan ziyalıları

*Məhərrəm Qələndərov Qərbi Azərbaycanın sayılıb-seçilən ziyalıları sırasındadır. Ömrünün 81-ci baharını yaşayır, yerişinə-duruşuna baxanda ona bu yaşı vermək olmur, çöhrəsindən nur tökülür. O, polad kimi bərk, almaz kimi möhkəm, büllur kimi saf, halal, müdrik və mərd bir şəxsiyyətdir. Məhərrəm Göyçəlinin mənalarla və mübarizlərlə dolu həyatı, şirin sözü-söhbəti, müdrik kəlamları, fəlsəfi mühakimələri və həm də bir insan kimi sadəliyi, mehribanlığı, təvazökarlığı, yurdsevərliyi, milli təəssübkeşliyi, sidq ürəklə Qərbi Azərbaycana bağlılığı ona hörmət qazandırır. Onu həmişə ağ xalatda görmək olar, həkimdir, insanların sağlamlığı yolunda çalışır, müdrik şəxsiyyət kimi ahıllıq-ağsaqqallıq mərtəbəsinə yüksəlib. Məhərrəm həkim barəsində deyilən hər fikir, onu yaxından tanıyan, dostluq sarayını birgə ucaldan, sözünə-söhbətinə, mühakimə və hikmətinə, biliyinə, istedadına və nəhayət geniş dünya görüşünə heyran olursan.*

# Göyçəli həkimin ömür yolu



Azərbaycan xalqının milli-mənəvi dəyər xəzinəsində ən qiymətli inci olan Qərbi Azərbaycanın Məhərrəm Qələndərov kimi səhiyyə fədailərindən yazmaq, onun kimi müdrik bir insanın ömür yollarını, yaşam tərzini indiki və gələcək nəsillərə çatdırmaq çox faydalıdır.

Məhərrəm Qələndərov 1944-cü ilin qızıl payızında Türk-Oğuz torpağının (indiki Ermənistan) füsunkar bir parçasında - Göyçədə, Göyçə gölünün lacivərd sularının döyəclədiyi bir bölgədə - Çəmbərək rayonunun Toxluca kəndində dünyaya göz açmışdır. Uşaqlıq illəri Göyçə gölünün nəğməli sahillərində keçib, "Ocaq" dağının, "Kirkitli" dağının, "Dərəyurd" yaylağının hər qarışında onun ayaq izləri qalıb, yalçın qayalıqları gəzər, çox vaxt dumandaçəndə at belində olardı.

M.Qələndərov doğma kəndlərində orta məktəbi bitirdikdən sonra bir yay günündə qatarla Bakı şəhərinə yollanmış, tərəddüd etmədən sənədlərini N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetinə vermiş, arzusu çin olmuş, universitetin müalicə profilaktika fakültəsinə daxil olmuşdur. Tələbəlik illərində Məhərrəm Qələndərov tədris olunan bütün fənnlərə böyük maraq göstərmiş, tibb elminə dair ədəbiyyatları həvəslə mütaliə etmiş, elmi biliklərlə mükəmməl yiyələnməyə səy göstərmişdir. Məhz buna görə də imtahanlarda verdiyi cavablar həmişə müəllimləri razı salmışdır.

Ali məktəbi qurtardıqdan sonra Məhərrəm Qələndərov təyinatla Qərbi Azərbaycana göndərilmiş, o həkim kimi doğma kəndlərində əmək fəaliyyətinə başlamış, tezliklə rayon ictimaiyyəti arasında hamının rəğbətini qazanmış, səhiyyədə olan yenilikləri öyrənib, tətbiq olunmasında ikiqat səylə çalışmışdır.

Məhərrəm Qələndərov 20 il Toxluca kəndində baş həkim vəzifəsində çalışmış, bu müddətdə səhiyyənin inkişafına qayğı və diqqət göstərmiş, respublikada keçirilən bir çox tədbirlərdə iştirak etmiş, tərifnamə və diplomlara layiq görülmüş, tibb üzrə azərbaycanlı kadrların yetişməsində səmərəli işlər görmüşdür.

M.Qələndərov yeganə azərbaycanlı həkim idi ki, Ali Dərəcəli Həkim Terapevt dərəcəsinə layiq görülmüşdür. Şübhəsiz ki, azərbaycanlı həkimin yüksək ada layiq görülməsi erməni həkimləri ciddi narahat edirdi.

1980-ci illərdə erməni şovinistləri faşist ideologiyasını yenidən davam etdirərək uydurma Qarabağ məsələsini ortaya atdılar. 1988-ci ildə isə ermənilər sonuncu deportasiyanı reallaşdırdılar. Keçmiş SSRİ prezidenti Mixail Qorbaçovu və digər ermənipərəst qüvvələri ələ aldılar. 300 min soydaşımız min illər boyu yaşadıqları doğma torpaqlarından qovuldu, belə bir çətin anda baş həkim Məhərrəm Qələndərov tutduğu vəzifədən azad olundu, öz ailəsi ilə doğma kəndindən ayrılıb köç karvanına qoşuldu. Son dəfə məzarlıqları ziyarət etdi, Göyçə gölü ilə sağollaşıb doğma ata-yurdundan ayrıldı. Məhərrəm həkim Bakıda məskunlaşdı, bir müddət keçdikdən sonra Sabunçu rayonundakı iki saylı xəstəxanada terapevt həkim kimi əmək fəaliyyətinə başladı. İnsanlara nümunəvi tibbi xidmət göstərilməsində səy və bacarığını əsirgəmədi. 2000-ci ildə Prezident Heydər Əliyevin Sərəncamı ilə təcrübəli həkim Azərbaycan Respublikasının əməkdar həkimi adına layiq görüldü.

M.Qələndərov daha sonra əmək fəaliyyətini Xətai rayonunda davam etdirmiş, 6 nömrəli poliklinikanın baş həkimi vəzifəsində çalışmış, insanların ümid yerinə çevrilmiş, dəfələrlə diplomlara layiq görülmüşdür.

Görkəmli səhiyyə işçisi, əməkdar həkim Məhərrəm Qələndərov 2011-ci ildən Bakı şəhərindəki "Qələndər" klinikasının baş həkimi vəzifəsində çalışır, peşəsinin vurğunudur, daha doğrusu, insan qəlbinin mühəndisidir. Plastik cərrahiyyəyə gələnlər həmişə Məhərrəm həkimin fəaliyyətindən razılıqla danışırlar.



Məhərrəm həkimlə iş otağında görüşüb söhbət etdik. O bildirdi ki, Qərbi Azərbaycanda işlədiyi illərdə "Sovet Ermənistanı" qəzetində, Azərbaycan dilində səsləndirilən radio verilişlərində onun haqqında reportajlar verilmiş, yerli televiziyada süjet hazırlanmışdır.

Məhərrəm həkim 4 övlad atasıdır, on bir nəvəsi və bir nəticəsi var. Oğlu Vaqif də atasının yolunu seçib, tanınmış elmlər doktoru, professor kimi dünyanın müxtəlif ölkələrində keçirilən mötəbər konfranslarda ölkəmizi bacarıqla təmsil edir.

Məhərrəm həkim gözəl bilir ki, boya-başa çatdığı Göyçə mahalının tarixi canında, qanında yaşatdığı Azərbaycan türkünün tarixi qədər böyükdür. Bu mahalın hər qarışında xalqın silinməz, pozulmaz tarixi abidələri var.

**Qədir ASLAN,**
**"Respublika".**

Respublika .- 2025.- 23 iyul (№ 150).- S.9.